# Xalq yazıçısı Mirzə İbrahimovun xatirə günüdür

**Müasir Azərbaycan ədəbiyyatının təşəkkülündə və inkişafında böyük xidmətləri olan nasir, dramaturq, akademik, Beynəlxalq Nehru mükafatı laureatı, Əməkdar incəsənət xadimi, Sosialist Əməyi Qəhrəmanı, yazıçı Mirzə İbrahimovun bu gün anım günüdür.**

1911-ci il oktyabrın 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olub. 1918-ci ildə atası ilə Bakıya gəlib. Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun ikillik hazırlıq şöbəsində, SSRİ Elmlər Akademiyasının Leninqraddakı Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil alıb. Azərbaycan SSR xalq maarif komissarı (1942-1946), Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin sədri (1946-1954), birinci katibi (1965-1975), SSRİ Yazıçılar İttifaqı idarə heyətinin katibi (1965-1975), Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin müavini (1946-1950), Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958), Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda XIX əsr Azərbaycan ədəbiyyatı tarixi şöbəsinin müdiri (1960-1970) vəzifələrində işləyib. Ömrünün axırınadək Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan Ədəbiyyatı Şöbəsinin müdiri olub. 3 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni və digər orden və medallarla təltif olunub. Həyat və ədəbiyyat" (1947), "Gələcək gün" (1954), "Böyük dayaq" (1957), "Pərvanə" (1971), "Əsərləri (on cilddə 1978-1981), "Niyəsiz, necəsiz bir yazısan sən" (1985) və s. kitabların müəllifidir.



O, milli filoloji elmi kadrların hazırlanması sahəsindədə böyük işlər görüb. 20 avqust 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin "Azərbaycan SSR-in dövlət dili haqqında Azərbaycan SSR-in Konstitusiyasına maddə əlavə edilməsi haqqında qanun"u qəbul etməsi bu yüksək dövlət təşkilatının rəhbəri Mirzə İbrahimovun böyük səyləri nəticəsində mümkün olmuşdu. Həmçinin, onun "Azərbaycan dili dövlət idarələrində" adlı məqaləsində (1956) milli məsələ ilə bağlı tale yüklü problemlər ön mövqeyə çəkilib.

Mirzə İbrahimov 1993-cü il dekabrın 17-də Bakıda vəfat edib.

**Şəfiqə Şəfa**